*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №2* *ISSN: 2664-5432*
*Səhifə: 121-127*
*https://doi.org/10.59849/2664-5432.2024.2.121*

**Ayşən İSMAYILLI***

# QARABAĞIN İNCİSİ ŞUŞA RAYONUNUN MİKROTOPONİMLƏRİ

## XÜLASƏ

Mikrotoponimlərin araşdırılması nəticəsində xalqımızın etnik tarixinin inkişafı prosesində yaxından iştirak edən etnosları meydana çıxarmaq mümkündür. Bu onimlərin areallıq xüsusiyyətləri bir daha təsdiq edir ki, əsrlər boyu nəinki Qarabağ bölgəsində, həmçinin Gürcüstan, Qərbi Azərbaycan (indiki Ermənistan), Türkiyə ərazilərində bineyi-qədimdən mövcud olan xeyli sayda paralelləri vardır. Bu isə belə el-oba adlarının areallarının müəyyənləşdirilməsi üçün kifayət qədər mikrotoponimik materiallar verə bilir. Tədqiqata cəlb etdiyimiz Qarabağ bölgəsinin (Şuşa şəhəri) mikrotoponimik mənzərəsini dolğun şəkildə əks etdirən mikrotoponimlər tam sistem halına salınmamış, əraziyə aid olan rayonların coğrafi onimləri leksik-semantik və struktur xüsusiyyətləri ətraflı təhlil olunmamışdır. El-oba adlarının sistem şəklində qruplara ayrılması, milli mənşəli mikrotoponimlərin yaradılmasında onların əsas rolu, belə coğrafi onimlərin strukturunda leksik, morfoloji və sintaktik xüsusiyyətlərin müəyyən olunması və s. bu kimi məsələlər dilçilik aspektindən dövrün aktual problemlərindən biridir və mühüm əhəmiyyətə malikdir. Bu onimlər Azərbaycan dilinin tarixi qrammatikası, leksikologiyası, etimologiyası haqqında da məlumatlar verir. Qarabağ bölgəsindəki (Şuşa şəhəri) yer-yurd adlarının toplanması qədim zamanlardan ərazidə yaşayan türkdilli xalqlar, nəsillər, tayfalarla bağlı dolğun məlumatların əldə olunmasına şərait yaradır. Bu etnonimlərin müəyyən hissəsi dağ, dərə, təpə, düz, qobu, çöl, çay, dik, dikdir, bağ, yaylaq, qışlaq, yol, məhəllə və s. adlarının tərkibində qorunub saxlanmışdır.

Qarabağ bölgəsindəki (Şuşa şəhəri) antroponim, etnonim, zoonim, fitonimlərdən əmələ gələn mikrotoponimik vahidləri olduqca zəngin quruluşa malikdir. Hər bucağında tarix yaşadan Qarabağ bölgəsinin müxtəlif yaşayış yerlərində tarixin qədim dövrlərinin carçısı olan maddi-mədəniyyət abidələri ərazidə məskunlaşan əhalinin sənət, peşə, məşğuliyyəti, əksi inancları, dünyagörüşü və s. haqqında geniş məlumat verir.

**Açar sözlər:** *Qarabağ, bölgə, Şuşa, şəhər, mikrotoponim*

Qarabağ bölgəsi əzəli və əbədi Azərbaycan torpağıdır. Torpaqlarımız işğal altında olduğu dövrlər ərzində bədniyyət düşmənlərimiz bir çox el-oba adlarını dəyişdirmiş, yeni adlar vermişlər. Bir sözlə, erməniləşdirmə siyasəti həyata

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Toponimika şöbəsi, kiçik elmi işçi. Email: aysheaxmedova4@gmail.com

keçirərək yer-yurd adlarımıza qarşı toponimik cinayət edib, vandalizm – tarixi adlara qarşı soyqırım törətmişlər. Bu zaman isə əsas məqsəd coğrafi adlarımızı, keçmişimizi silmək və əvəzinə öz qondarma iddialarını irəli sürmək idi. Torpaqlarımız işğaldan azad edildikdən sonra onlar siyasətlərini həyata keçirə bilmirlər. Çünki, onların dəyişdirdiyi toponimik vahidlər Azərbaycan torpağı ərazisindədir. Bu fikri tarixi faktlar da sübut edir.

Mikrotoponimlər xalqımızın etnik mənşəyinin və ictimai-siyasi proseslərin daşıyıcısı kimi mühüm əhəmiyyətə malikdir. Uzaq keçmişin xəbərçisi olan mikrotoponimik vahidlər toponimik layda baş verən dəyişiklikləri izləməyə yardımçı olur. Mikrotoponimik vahidlər tariximizlə əlaqəli olaraq qiymətli faktlar verməklə yanaşı, qədim zamanlarda tədqiqata cəlb olunan ərazidə məskunlaşan xalq, tayfa, nəsil haqqında məlumatlar əldə etməyə, baş verən prosesləri izləməyə, tarixi fakt və həqiqətləri aşkar etməyə kömək edir.

Keçmiş tariximizin izləri toponimik sistemin əsasını təşkil edən yer adlarında mühafizə olunur. Toponimik vahidlər arasında əhəmiyyətli rol oynayan mikrotoponimlər xalqın etnik tarixi, xüsusən etnogenezisi problemi araşdırılarkən mühüm əhəmiyyət kəsb edir və dilimizin ən qədim leksik vahidlərindən sayılır. Sosial işarə kimi onların xarakterik cəhətləri vardır. Dilimizdə mikrotoponimlər xüsusi rol oynayır, ayrı-ayrı sistem və yarımsistemlər əmələ gətirir. Qarabağ bölgəsi qədim zamanlardan etibarən xalqımızın təşəkkül prosesində yaxından iştirak edən türk tayfalarının yaşayış məkanı olmuşdur. "Qarabağ Azərbaycan təbiətinin nadir gözəlliklərini, Azərbaycan xalqının maddi, mədəni və mənəvi irsini, qədim adət-ənənələrini özündə əks etdirən füsunkar diyardır" [Məmmədov: 2021, s.20]. Onun üçün də həm qədim türk, həm də müasir yer-yurd adlarının daşıyıcısı olan Azərbaycan toponimiyasının müəyyən hissəsi milli dil vahidləridir. Bu toponimik vahidlər dilimizin inkişaf qanunlarına uyğun olaraq bir-birindən fərqli söz və söz qrupları vasitəsilə əmələ gəlmişdir. Belə ki, toponimlərin yaranmasında tayfa, nəsil, tirə başçılarının adları, onların dini mənsubiyyətləri, sənət, peşə, məşğuliyyətləri, ləqəbləri, titulları, su obyektləri (çay, kanal, bulaq, arx və s), oronimlər (dağ, dərə, təpə, ayrıq, düz, qaya, zəmi və s), fitonimlər (bitki adları), zoonimlər (heyvan adları), təsviri sözlər, dini xarakterli sözlər və s. mühüm rol oynayır. Dilçilik ədəbiyyatında coğrafi onimlər leksik-semantik xüsusiyyətlərinə görə müxtəlif bölgülərlə təsnif olunmuşdur.

Şuşa rayonunun mikrotoponimlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**1.Antroponimlərdən əmələ gələn mikrotoponimlər**

**2. Etnonimlərdən əmələ gələn mikrotoponimlər**

**3. Fitonimlərdən əmələ gələn mikrotoponimlər**

**4. Zoonimlərdən əmələ gələn mikrotoponimlər**

**5. Təsviri mikrotoponimlər.**

**Antroponimlərdən əmələ gələn mikrotoponimlər:** Azərbaycan toponimiyasının çox hissəsini antroponimlərdən əmələ gələn mikrotoponimlər təşkil edir. Belə ki, toponimlər şəxs məfhumu da bildirən sözlərlə işlənə bilir və

müəyyən insan qruplarını, dəstələrini işarələndirir, ona görə də antroponimlərlə sıx bağlıdır. Şəxs adlarının yaranma tarixi qədim dövrlərə gedib çıxır. Bioloji varlıq olan insanın adlandırılması tarixi səciyyə daşıyır. Antroponimlər xalqımızın tarixi, psixologiyası, mifik dünyagörüşü, peşə, sənət, məşğuliyyəti və s. ilə bağlı olaraq yaranan söz qruplarıdır. Bu adlar müəyyən zaman çərçivəsində yaranır, inkişaf edir, dəyişir. Məsələn: İsa bulağı, Xan evi, Seyid ocağı, Sərqa ocağı, Əli ocağı, Zülfüqar tikdirdiyi karvansara, Mamayı məscidi, Mehmandarovlar məscidi, Vaqif məqbərəsi, Mehmandarovların malikanəsi, Natəvan bağı, Sabir küçəsi, Heydər türbəsi, Vaqif poeziya evi, Vaqifin məqbərəsi, Vaqifin büstü, Vaqifin evi, Natəvanın büstü, Natəvanın tikdirdiyi Qarama, Hacı Qulamın mülkü, Nəvvabın mülkü, Nəvvabın abidə kompleksi, Qaraşovların mülkü, Sadıqcan küçəsi, Kərim yatağı, Şəmilin bağı, Şəmilin bulağı, Cəfər bulağı, Heydər türbəsi, Natəvanın evi, Bülbülün evi, Ağanın imarəti, Seyidli məscidi, Culfalar məscidi, Köçərli məscidi, Ağamirovların mülkü, Qaraşovların mülkü, Seyildi məscidi, Xanqızı bulağı, Dəmirçi Məşədi Tağının evi, Qarabəyim ağanın qəsri, Molla Pənah Vaqifin qəbri, Seyid Xəlil ocağı, Həzrət Abbas ocağı, Mir Faseh ocağı, Hacı Məhərrəmin karvansarası, Hacı Əmiraslan bəyin karvansarası, Uğurlu bəyin karvansarası, Mir Səyyaf oğlunun karvansarası, Murad bəyin karvansarası, Hacı Hüseynin karvansarası, Gövhər ağanın karvansarası, Hacı Abbas bəyin karvansarası, Məhəmməd Həsən Ağanın imarəti, Qasım ağanın ocağı və s.

**Etnonimlərdən əmələ gələn mikrotoponimlər:** Etnotoponimlər toponimik leksikanın müəyyən bir qismini əhatə edir. Dilimizin lüğət tərkibində xüsusi qatlardan birini təşkil edən bu onimlər qədim zamanlardan yaranmışdır. Belə vahidlərin özünəxas olan xüsusiyyətləri vardır. Ərazinin geomorfoloji quruluşu, flora və faunası müxtəlif etnosların yaşamasına şərait yaratmış, makrotoponimik və mikrotoponimik sistemi əmələ gətirmişdir. Etnonimlər xalq, qəbilə, nəsil, tirə adlarını öyrənir. Bu şəkildə əmələ gələn mikrotoponimlərə etnotoponimlər deyilir. Yer yurd adlarının meydana gəlməsi tarixi və siyasi səbəblərdən baş verir. Yaşı minillərə dayanan el-oba adlarımız müxtəlif zaman kəsiyində bəzi proseslərin nəticəsi olaraq ya çox sürətlə, ya da ilk baxışda görünməyən dəyişikliyə uğramışdır. Etnonimlərdən əmələ gələn mikrotoponimlər araşdırılan zaman onimlərin meydana gəlmə səbəbi, məna və mənşəyi, mikrotoponimyaratmada rolu müəyyən olunur.

Ümumiyyətlə, onomastik sistemin az tədqiq olunmuş bölməsi etnonimlərdən əmələ gələn mikrotoponimlərdir. Belə yaranan mikrotoponimlərlə bağlı olaraq elmi ədəbiyyatlarda, demək olar ki, müəyyən fikirlər söylənilmişdir. Arifə İsmayılova yazır: “Etnonimik oykonimlər Dağlıq Qarabağ ərazisindəki oykonimlərin müəyyən hissəsi, xalq, tayfa və nəsil adlarından – etnonimlərdən əmələ gəlmişdir. Lakin regiondakı etnotoponimlərin yaranma müddəti müxtəlifdir. Bunların əksəriyyəti müxtəlif vaxtlarda və ərazidə məskunlaşmış türk mənşəli tayfaların adını əks etdirir” [İsmayılova: 1995, s.32]. Qarabağ bölgəsində məskunlaşan etnosların adlarından əmələ gələn mikrotoponimlərin çox qismi xalqımızın etnogenezis prosesində də yaxından iştirak etmiş tayfa adlarını bildirir.

Qarabağ bölgəsində də yayılma arealı geniş olan etnonim mənşəli mikrotoponimlər qeydə alınmışdır: Qatırçı yolu, Quşçular çayı, İmirli qışlağı, Xəlfəli çayı, Seyidli məscidi, Mərdinli məscidi, Culfalar məscidi, Malıbəyli məscidi, Qaybalı məscidi, Seyidli məhəlləsi, Xəlfəli dərəsi (Şuşa rayonu);

**Fitonimlərdən əmələ gələn mikrotoponimlər:** Qarabağ bölgəsinin təbiəti olduqca füsunkardır. Ərazi bitki örtüyünə görə fərqlənir. Bu geomorfoloji quruluş çox sayda fitonimlərin qeydə alınmasına şərait yaradır. Bitki adları ilə bağlı olaraq əmələ gələn toponimlərə fitotoponimlər deyilir. Azərbaycan dilinin toponimik sistemində fitonimlərdən əmələ gələn mikrotoponimlər özünəməxsus yer tutur. Belə ki, hər bitkinin adı tək olur. Müxtəlif bitki növlərinin yayılması isə ərazinin relyef quruluşundan asılıdır. Qarabağ bölgəsinin relyefi düzənlik və qismən dağlıqdır. Bitki örtüyü zəngin və iqlimi əlverişlidir. Landşaft kompleksi özünəməxsusdur. Ərazidə qaratikan, yovşan, yarpız, saqqız, palıd və s. bitir. Coğrafi obyektlərin nominasiyasında bu bitkilərin adlarından istifadə olunmuşdur. Bu adlar leksik-semantik və struktur xüsusiyyətinə görə fərqlənir. Bitki florasına daxil olan ağac, kol, bitki adları əkinçilik təsərrüfatında da istifadə olunur.

Qarabağ bölgəsindəki mikrotoponimləri 6 növə ayırmaq olar:

**1) Ağac adları əsasında əmələ gələn mikrotoponimlər:** Çinar bulağı, Fındıqlıq, Gicitkanlı dərə və s. (Şuşa rayonu).

**2) Meyvə ağacı adları əsasında əmələ gələn mikrotoponimlər:** Alçalı yal, Armudlu dərə, Armudluq və s. (Şuşa rayonu).

**3) Taxıl bitkilərinin adları əsasında əmələ gələn mikrotoponimlər:** Arpa yalı (Şuşa rayonu).

**4) Gül, çiçək və ot, tikan bitkilərinin adı əsasında əmələ gələn mikrotoponimlər:** Gicitkanlı dərə, Kəklikotulu güney və s. (Şuşa rayonu).

**5) Yabanı bitki adları əsasında əmələ gələn mikrotoponimlər:** (Şuşa rayonu).

**6) Giləmeyvə adları əsasında əmələ gələn mikrotoponimlər:** Əzgilli dərə, Əzgillik, Qarağatlı dərə, Qaragiləlik və s. (Şuşa rayonu).

**Zoonimlərdən əmələ gələn mikrotoponimlər:** Azərbaycan dilinin toponimik sisteminin bir layını zoonimlərdən əmələ gələn mikrotoponimlər təşkil edir. Heyvan, quş və s. canlıların adları əsasında əmələ gələn mikrotoponimlərə zootoponimlər deyilir. Qarabağ bölgəsi geomorfoloji quruluşu etibarilə zəngin olduğu üçün heyvanlar aləmi də fərqlənir. Heyvanat aləmində müxtəlif növdə olan heyvanlara rast gəlinməsi relyef quruluşu və bitki örtüyünün zənginliyi ilə əlaqədardır. Meşələrdə maral, ayı, dağ keçisi, bəbir və s, yüksək dağlıq ərazilərdə, qayalıqlarda dovşan, tülkü, canavar, dağ keçisi, çaqqal və s. rast gəlinir. Qarabağ bölgəsində mövcud olan mikrotoponimlərin müəyyən qismini zootoponimlər təşkil edir. Belə yer-yurd adları zoonimlərdən yaranan mikrotoponimlər hesab olunur. “Heyvanlarla həyatı bölüşmə öyrənildən sonra, onları bir-birindən ayırmaq üçün müxtəlif işarətləmə yollarına gedilmişdir. Bunun nəticəsində bəzi insan və bitki

adlandırmalarında daha əvvəldən işarətlənmiş olan heyvanların adlarından da yararlanılmışdır” [Uçar: 2013, s.1-19].

Bu şəkildə əmələ gələn mikrotoponimləri 2 növə ayırmaq olar:

1. Heyvan adları əsasında əmələ gələn mikrotoponimlər;

2.Quş adları əsasında əmələ gələn mikrotoponimlər.

Heyvan adları əsasında əmələ gələn mikrotoponimlər: Ayı bulağı, Ayı talası, Ayı məhəli, At məhəli, Buğa yaylağı, Canavar talası, Ceyran bulağı, Dəvə dərəsi, Əjdaha bulağı, Kaftar dərəsi, Qatır yaylağı, Qurdlar məhəlləsi (Şuşa rayonu).

Quş adları əsasında əmələ gələn mikrotoponimləri aşağıdakı şəkildə qruplaşdırmaq olar: Quzğunlu qaya (Şuşa rayonu).

**Təsviri sözlərdən əmələ gələn mikrotoponimlər:**

**Ağ komponentli mikrotoponimlər**: Ağqaya (Şuşa rayonu);

**Qara komponentli mikrotoponimlər**: Qaraqaya bulağı (Şuşa rayonu);

**Qırmızı komponentli mikrotoponimlər**: Qırmızı dərə, Qırmızı təpə (Şuşa rayonu);

**Sarı komponentli mikrotoponimlər:** Sarıburun, Sarıqaya, Sarıyoxuş, Sarıgüney (Şuşa rayonu);

**Qızıl komponentli mikrotoponimlər:** Qızılqaya, Qızıldaş qayası (Şuşa rayonu);

**Göy komponentli mikrotoponimlər:** Göytala, Göyqaya, (Şuşa rayonu);

**Süxurların tərkibinə əsasən yaranan mikrotoponimlər:** Daşlı bulaq (Şuşa rayonu);

**Obyektin ölçülərinə əsasən əmələ gələn mikrotoponimlər.** Böyük Cümə məscidi (Şuşa rayonu);

**Səthin bitkisiz olmasına əsasən yaranan mikrotoponimlər.** Keçəldağ aşırımı (Şuşa rayonu);

**Suyun dadına əsasən yaranan mikrotoponimlər:** Şor bulaq (Şuşa rayonu);

**Yerləşdiyi cəhətə əsasən yaranan mikrotoponimlər.** Yuxarı məhlə (Şuşa rayonu);

**Baş vermiş hadisəyə əsasən yaranan mikrotoponimlər.** Xan ölən səngər, Mehdiuçan qaya, Hürü qaçan dərə ağzı (Şuşa rayonu);

**Bu və ya başqa əşyalara oxşarlığına əsasən yaranan mikrotoponimlər.** Qapıqaya (Şuşa rayonu);

**İnsan və heyvanın bədən üzvlərinə oxşadılmasına görə yaranan mikrotoponimlər:** Ağzı yastı kaha, Ayaqyalınlar məhəlləsi, Başıkəsiktəpə, Bazarbaşı, Enli döş, Hürü qaçan dərə ağzı (Şuşa şəhəri);

**İnşaat sözlərindən düzələn mikrotoponimlər:** Alıbəy taxtası, Çınqıllıq, Daşlı bulaq, Əhəng quyusu, Əhəng yanan, Qızıldaş qayası (Şuşa rayonu).

**Nəticə**: Deyilən fikirləri əsas tutaraq belə nəticəyə gəlmək olar ki, Azərbaycan dilinin toponimik sisteminin vacib leksik laylarından olan mikrotoponimlərin dilçilik aspektindən təhlil olunması olduqca əhəmiyyətlidir.

Qarabağ bölgəsində (Şuşa şəhərində) dilimizin inkişafı üçün mühüm rola malik olan çoxlu sayda mikrotoponimlərə rast gəlinmişdir. Beləliklə, Qarabağ bölgəsinin (Şuşa şəhərinin) mikrotoponimlərinin leksik-morfoloji və struktur-semantik təhlili toponimiyanın inkişafı üçün zəruridir.

## ƏDƏBİYYAT


1. Sadir Məmmədov, Tural Məmmədov. Qarabağ mif və həqiqət. Bakı, Təhsil, 2021, 480 s. S 20.
2. Arifə İsmayılova. Dağlıq Qarabağ toponimlərinin tədqiqi. Coğrafiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işi. Bakı, 1995, 150 s, s 32.
3. İlhan Uçar. Türkiyə türkçəsində heyvan adlarından törədilən bitki adları. Uluslararası türkcə ədəbiyyat kültür təhsil dərgisi sayı. Sayı 2 1, 2013, 1-19.


## MICROTOPONYMS OF NCISI SHUSHA DISTRICT OF KARABAKH
## SUMMARY


As a result of researching microtoponyms, it is possible to identify ethnoses that are closely involved in the development of the ethnic history of our people. The regional characteristics of these onims once again confirm that they have a large number of parallels that existed not only in the Karabakh region, but also in the territories of Georgia, Western Azerbaijan (now Armenia), and Turkey. This can provide enough microtoponymic materials for determining the areas of such el-oba names. The microtoponyms that fully reflect the microtoponymic landscape of the Karabakh region (Shusha city), which we involved in the research, have not been made into a complete system, and the geographical onims of the regions belonging to the area have not been analyzed in detail. Systematic division of village names into groups, their main role in the creation of microtoponyms of national origin, determination of lexical, morphological and syntactic features in the structure of such geographical names, etc. such issues are one of the topical problems of the time from the aspect of linguistics and are of great importance. These names also provide information about the historical grammar, lexicology, and etymology of the Azerbaijani language. The collection of place-names in the Karabakh region (Shusha city) makes it possible to obtain complete information about Turkic-speaking peoples, generations, and tribes living in the area since ancient times. A certain part of these ethnonyms are mountain, valley, hill, flat, gobo, steppe, river, steep, steep, garden, meadow, winter, road, neighborhood, etc. preserved in their names. The microtoponymic units formed from anthroponyms, ethnonyms, zoonyms, and phytonyms in the Karabakh region (Shusha city) have a very rich structure. In the different residential areas of the Karabakh region, which has history in every corner, the material and cultural monuments that are the harbingers of the ancient times of history reflect the art, profession, occupation, beliefs, outlook, etc. of the people living in the area. provides extensive information about


**Key words:** *Karabakh, region, Shusha, city, microtoponym*

## МИКРОТОПОНИМЫ НЦИСИ ШУШИНСКОГО РАЙОНА КАРАБАХА

## РЕЗЮМЕ

В результате исследования микротопонимов можно выявить этносы, принимающие непосредственное участие в развитии этнической истории нашего народа. Региональные особенности этих онимов еще раз подтверждают, что они имеют большое количество параллелей, существовавших не только в Карабахском регионе, но и на территориях Грузии, Западного Азербайджана (ныне Армения) и Турции. Это может дать достаточный микротопонимический материал для определения ареалов таких названий ел-оба. Микротопонимы, полностью отражающие микротопонимический ландшафт Карабахского региона (город Шуша), который мы привлекли к исследованию, не были сведены в целостную систему, а географические онимы входящих в ареал регионов не анализировались детально. . Систематическое разделение названий деревень на группы, их основная роль в создании микротопонимов национального происхождения, определение лексических, морфологических и синтаксических особенностей в структуре таких географических названий и т.д. подобные вопросы являются одной из актуальных проблем современности с точки зрения языкознания и имеют большое значение. Эти имена также предоставляют информацию об исторической грамматике, лексикологии и этимологии азербайджанского языка. Сбор топонимов в Карабахском регионе (город Шуша) позволяет получить полную информацию о тюркоязычных народах, поколениях и племенах, проживающих в этом районе с древнейших времен. Определенную часть этих этнонимов составляют гора, долина, холм, равнина, гобо, степь, река, крутой, крутой, сад, луг, зима, дорога, окрестность и т. д. сохранились в их именах. Микротопонимические единицы, образованные из антропонимов, этнонимов, зоонимов и фитонимов в Карабахском регионе (город Шуша), имеют очень богатую структуру. В различных населенных пунктах Карабахского региона, где история есть в каждом уголке, материальные и культурные памятники, являющиеся предвестниками древних времен истории, отражают искусство, профессию, род занятий, верования, мировоззрение и т.д. людей, живущих в области. предоставляет обширную информацию о

**Ключевые слова**: *Карабах, регион, Шуша, город, микротопоним*